# Əlaqə məlumatı

**“İnnovasiya və İslahatlar Mərkəzi” (IRC) Qeyri-Hökümət Təşkilatı (əgər sən vətəndaşlığı olmayan şəxssənsə)**

İnnovasiya və İslahatlar Mərkəzi BMT QAK-ın tərəfdaş təşkilatıdır və Gürcüstanda sənədsiz və vətəndaşlığı olmayan şəxslərə pulsuz hüquqi yardımı göstərir.

Ünvan: D. Qamrekeli küçəsi №2 (Aksis Palasın binası), 4-cü mərtəbə, 0160, Tbilisi, Gürcüstan.
(+995 32) 255 20 01/02
(+995) 577 614 191; (+995) 577 614 199+
info@irc.ge
www.irc.ge

**Legal Aid Service (LAS)**

Hüquqi Yardım Xidməti Gürcüstanda hüquqi yardımın əsas təchizatçısıdır. Siz Gürcüstanda statusunuza baxmayaraq, pulsuz hüquqi məsləhət üçün Hüquqi Yardım Xidmətinə müraciət edə bilərsiniz.

Ünvan: Tamar Mepe prospekti №14, 0112, Tbilisi, Gürcüstan.
(+995 32) 292 00 55
info@legalaid.ge

**Dövlət Xidmətlərinin İnkişaf Agentliyi (PSDA)**

Dövlət Xidmətlərinin İnkişaf Agentliyi Ədliyyə Nazirliyinin idarəçilik sahəsində fəaliyyət göstərən əsas dövlət orqanıdır və Gürcüstanda Sizin statusunuz haqqında şəhadətnamələrin və sənədlərin verilməsi, o cümlədən, vətəndaşlıq məsələləri barədə ərizənin müzakirə edilməsi üçün məsuliyyət daşıyır.

Dövlət Servislərinin İnkişaf Agentliyi (PSDA)
(+995 32) 240 54 05
Qaynar xətt: (+995 32) 240 10 10
info@sda.gov.ge; info@psh.gov.ge
www.psh.gov.ge



**Gürcüstan Xalq Müdafiəçisi - Ombudsmen**

Gürcüstan Xalq Müdafiəçisi konstitusiya ilə müəyyən edilmiş institutdur və Gürcüstanda insan hüquqları və azadlıqlarının müdafiəsinə nəzarət edir. Əgər Siz Gürcüstanda hüquqlarınız tamamilə müdafiə olunmadığını hesab edirsinizsə Xalq Müdafiəçisinə müraciət edə bilərsiniz.

Ünvan: Davit Ağmaşenebeli prospekti №150, 0112, Tbilisi, Gürcüstan.
Hotline: 1481 (functions 24/7)
info@ombudsmen.ge

**Vorld Vijen Gürcüstan**

“Vorld Vijen Gürcüstan” BMT QAK-ın tərəfdaş təşkilatıdır və icmanın səfərbər edilməsi istiqamətilə işləyir və Gürcüstanda sığınacaq axtaranlara, qaçqınlara və vətəndaşlığı olmayan şəxslərə sosial yardım göstərir.

Ünvan: A. Tsaqareli küçəsi №53, 0194, Tbilisi, Gürcüstan.
(+995) 577 045 645
multiservicecentre.wv@gmail.com

**Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Gürcüstan Nümayəndəliyi**

BMT QAK Gürcüstanda dövlət qurumları ilə sığınacaq və vətəndaşsızlıq məsələləri üzərində fəal işləyən əsas beynəlxalq təşkilatdır. Siz hüquqi məsləhət və yardım üçün BMT QAK-a müraciət edə bilərsiniz.

Ünvan: Al. Kazbeqi prospekti №2, 0161, Tbilisi, Gürcüstan.
(+995 32) 238 62 02; (+995) 577 415 610
geotbprt@unhcr.org
Qəbul saatları: çərşənbə axşamı və cümə axşamı, 9:30-dan - 17:00-dək.

UNHCR
The UN Refugee Agency

IRC
Innovations and Reforms Center

# Vətəndaşlığı olmayan şəxslər üçün məlumat broşuru



## Vətəndaşlığı olmayan şəxs kimdir?

Vətəndaşlığı olmayan şəxs, hər hansı bir dövlət tərəfindən öz qanunvericiliyinə əsasən vətəndaş hesab edilməyən şəxsdir.

## Vətəndaşlığı olmayan ərizəçi kimdir?

Vətəndaşlığı olmayan ərizəçi - vətəndaşlıq statusu / mənsubiyyəti bilinməyən və məsul dövlət orqanına - Dövlət Xidmətinin İnkişafı Agentliyinə statusunun müəyyənləşdirilməsi üçün ərizə ilə müraciət etmiş şəxsdir.

## Vətəndaşlığı olmayan şəxsə və vətəndaşlığı olmayan şəxs statusunu əldə etmək istəyən şəxsə şəxsiyyəti təsdiq edən hansı sənəd verilir?

Gürcüstanda vətəndaşlığı olmayan şəxs statusuna malik olan şəxs yaşadığı müddətdən asılı olaraq daimi və ya müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi ilə təmin edilir.
Statusun müəyyənləşdirilməsi proseduru zamanı Dövlət Xidmətinin İnkişaf Agentliyi ərizəçiyə şəxsiyyətini təsdiq edən 1 il etibarlılıq müddəti olan müvəqqəti vəsiqə verir. Həmin sənəd şəxsə vətəndaşlığı olmayan şəxs statusunun müəyyənləşdirilməsi barədə qərar qəbul edildikdən - vətəndaşlığı olmayan şəxs statusu verildikdən / rədd edildikdən sonra avtomatik olaraq etibarsız sayılır.
Əgər şəxsin vətəndaşlığı olmayan şəxs statusu müəyyən edilərsə, ona 3 il etibarlılıq müddəti olan müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi verilir. Müvafiq olaraq, sənəd hər 3 ildən bir yenilənməlidir.

***Yadda saxlayın: Siz şəxsiyyətinizi təsdiq edən sənəd olmadan heç bir hüquq və xidmətlərdən istifadə edə bilməyəcəksiniz.***



## Vətəndaşlığı olmayan şəxsə verilmiş hüquqlar

### *Vətəndaş vəziyyəti ilə əlaqədar olan hüquqlar*

Gürcüstan qanunvericiliyinə uyğun olaraq, siz, vətəndaşlığı olmayan şəxs kimi, aşağıdakı hüquqlara maliksiniz:

- Ad və/və ya soyadın dəyişdirilməsinin qeydiyyata alınması hüququ (əgər doğumunuz Gürcüstanda qeydiyyata alınmışdırsa)
- Atalığın müəyyən edilməsi hüququ
- Övladlığa götürmək hüququ
- Nikah bağlamaq və boşanmaq hüququ
- Övladınızın doğumunun qeydiyyata alınması hüququ



## Gürcüstanda vətəndaşlığı olmayan şəxslər üçün təhsil almaq hüququ

**✔ Məktəbəqədər təhsil**

Övladınızın (2-5 yaşına qədər) olduğu halda, onun uşaq bağçasına getmək və məktəbəqədər təhsil almaq hüququ var. Bunun üçün uşağın şəxsi nömrəsi olmalıdır.

**✔ Ümumi təhsil**

Əgər siz uşaqsınız/sizin övladınız vardırsa (6-18 yaşına qədər) - siz məktəbdə təhsil almaq və dövlət vauçerindən istifadə etmək hüququna maliksiniz.

**✔ Ali təhsil**

Əgər siz yetkinlik yaşına çatmış şəxssinizsə (yaş məhdudiyyəti olmadan) - siz institutda və ya universitetdə təhsil almaq hüququna maliksiniz. Bakalavr, magistr və doktor proqramları vətəndaşlığı olmayan şəxs üçün əlçatandır, lakin vətəndaşlığı olmayan şəxslər ali təhsilin maliyyələşdirilməsindən (dövlət qrantı) istifadə etmək imkanına malik deyildirlər.

**✔ Peşə təhsili**

Əgər siz yetkinlik yaşına çatmış şəxssinizsə (yaş məhdudiyyəti olmadan) - siz peşə təhsilini almaq hüququna maliksiniz. Peşə təhsili vətəndaşlığı olmayan şəxs üçün əlçatandır, lakin vətəndaşlığı olmayan şəxslər peşə təhsilinin dövlət maliyyələşdirilməsindən (dövlət qrantı) istifadə etmək imkanına malik deyildirlər.

## Gürcüstanda vətəndaşlığı olmayan şəxslər üçün səhiyyə və sosial xidmət

Vətəndaşlığı olmayan şəxs aşağıdakı hüquqlara malikdir:

- Gürcüstan vətəndaşları ilə eyni şərtlərlə dövlət ümumi səhiyyə proqramlarından yararlanmaq. Proqrama yazılmaq üçün vətəndaşlığı olmayan şəxs dövlət orqanı tərəfindən verilmiş qüvvədə olan şəxsiyyətini təsdiq edən sənədlə istənilən tibbi klinikaya (ilk tibbi yardımı təqdim edən müəssisə) müraciət etməlidir. Mövcud olan xidmətlər haqqında əlavə məlumat üçün 1505 qaynar xəttinə zəng etməyinizi və ya https://www.moh.gov-.ge/ veb-səhifəsinə daxil olmağınızı xahiş edirik.
- Dövlət pensiyasını almaq (qadın - 60 yaşdan; kişi - 65 yaşdan);
- Sosial pul yardımını (dolanışıq müavinəti) almaq;
- Yaşlılar pansionatına qəbul olunmaq hüququndan istifadə etmək (qadın - 60 yaşdan; kişi - 65 yaşdan);
- Fiziki imkanları məhdud olan şəxslər pansionatına qəbul olunmaq hüququndan istifadə etmək (əgər onun fiziki imkanı məhdud olan şəxs statusu rəsmi qaydada müəyyən edilmişdirsə).



## Mülkiyyət hüququ

Vətəndaşlığı olmayan şəxs ev/mənzil satın almaq və onun üzərində mülkiyyət hüququnu qeydiyyata almaq hüququna malikdir!

Gürcüstanda daimi/müvəqqəti statusa malik olan vətəndaşlığı olmayan şəxslər və vətəndaşlığı olmayan şəxs statusunu əldə etmək istəyənlərə Gürcüstan qanunvericiliyi ilə verilmiş hüquqlar-dan/güzəştlərdən və dövlət/özəl xidmətlərdən istifadə edilməsi haqqında ətraflı məlumat aşağıdakı linkdə verilib: http://unservicemap.srvlabs.net/ka-GE.

